KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 3 (16) 2022

ƏDƏBİYYATŞÜNASLIQ

**Sənubər Rövşən qızı Tapdıqlı**
***Bakı Dövlət Universiteti Filologiya fakültəsi***
***Azərbaycan ədəbiyyatı kafedrasının magistrantı***
*tapdiqlisenuber@gmail.com*

# QADIN MİKROALƏMİ VƏ MAKROALƏMİN ZƏRİF YARADILIŞA BAXIŞI

***Xülasə:*** *Bədii əsərləri bizə sevdirən, yaddaqalan edən maraqlı obrazlardır.Bədii obrazlar vasitəsilə həyatın dərki bizim üçün daha da asanlaşır. Yazıçılar bir çox hallarda cəmiyyətdə baş verən hadisələrə, problemlərə münasibətlərini bildirmək üçün öz fikirlərini, ideyalarını obrazların dili ilə xalqa çatdırırlar. Qadın obrazları hər zaman oxucular tərəfindən maraqla izlənilir. Bunun əsas səbəbi "qadının ictimai-mühitdə yeri", "qadın hüquq və azadlığı" mövzusunun hər dönəm üçün aktual olaraq qalmasıdır. Xüsusilə, türk ədəbiyyatında qadına hər zaman yüksək dəyər verilmişdir. Bu fakt özünü yazılmış əsərlərlə açıq-aydın sübuta yetirir.*

***Açar sözlər:*** *ədəbiyyatşünaslıq, obraz, qadın obrazları, mifologiya, Nizami Gəncəvi.*

**Sanuber Rovshan gizi Tapdigli**

## The Feminine Microcosm and Macrocosm's View of Graceful Creation

***Abstract:*** *Artistic works are interesting images that make us love them and make them memorable. Through artistic images, the understanding of life becomes easier for us. In many cases, writers convey their thoughts and ideas to the public through the language of images in order to express their attitude to events and problems in society. Female characters are always watched with interest by readers. The main reason for this is that the topic of "women's place in the social environment", "women's rights and freedom" remains relevant for every era. In particular, women have always been highly valued in Turkish literature. This fact is clearly proven by written works.*

***Key words:*** *literary studies, image, female images, mythology, Nizami Ganjavi.*

Санубер Ровшан кызы Тапдыглы

## Женский микрокосм и взгляд макрокосма на изящное творение

***Резюме:*** *Художественные произведения – это интересные образы, которые заставляют нас полюбить их и сделать запоминающимися.Через художественные образы нам становится легче понять жизнь. Во многих случаях писатели языком образов доносят до публики свои мысли и идеи, чтобы выразить свое отношение к событиям и проблемам в обществе. Женские персонажи всегда с интересом наблюдают читатели. Основная причина этого в том, что тема «место женщины в социальной среде», «женские права и свободы» остается актуальной для каждой эпохи. В частности, женщины всегда высоко ценились в турецкой литературе. Этот факт наглядно подтверждается письменными работами.*

***Ключевые слова:*** *литературоведение, образ, женские образы, мифология, Низами Гянджеви.*

Ədəbiyyatşünaslıqda tez-tez istifadə olunan anlayışlardan biri də obraz terminidir: "Obraz çoxmənalıdır, duyulan, hiss edilən fikir sistemidir. Obraz varlığın, ictimai-siyasi həyatın, meyl və münasibətin dərkini asanlaşdırır, insanın ağlına, hisslərinə və iradəsinə təsir göstərir, onda mübarizə aparmaq, dünyanı gözəlləşdirmək həvəsi oyadır" [6, s.109]. "Obrazın atası həqiqət, anası xəyaldır" [8, s.103].

Bəşər tarixi boyu yazılmış əsərlərin əsas xəttini qadın obrazları təşkil etmişdir. Ən qədim zamanlardan bəri yazılan əsərlərdə maraqlı qadın obrazları ilə rastlaşmaq olar. Müxtəlif xalqların mifologiyası qadın obrazlarının yarandığı ilk mənbələr hesab edilə bilər. "Qədim yunan mifologiyasına görə ilk qadın Pandora adlanmışdır. Belə ki, Prometeyin insanlara verdiyi ağıl onları yollarından azmağa sövq etdiyi üçün Zevs, o zamana qədər ancaq kişilərdən ibarət olan insan topluluğuna cəza vermək istədi və onlara qadını göndərdi. Zevs olduqca peşəkar bir usta olan oğlu Hefestdən qadını yaratmasını istədi. Hefest atasının isteyi üzərinə palçığı su ilə yoğurdu və görənləri heyrətləndirəcək gözəllikdə bir qadın vücudu yaratdı. Onu bəzəmək üçün bütün tanrılar və ilahələr kömək etdilər. Hər kəs özündən ona bir şey ərməğan etdi və ona rum dilində "bütün ərməğan" mənasına gələn Pandora adını verdilər. Zevs ona sirli bir qutu ərmağan etdi və ona dedi ki, "Heç vaxt verdiyim qutunu açma! İçindəki yaxşı şeylər uzaqlara qaçar və onların yerinə pis şeylər gələr, səni narahat edərlər". Lakin Pandora da bütün qadınlar kimi doğuşdan marağı olduğundan dünyaya gələr-gəlməz qutunun içində nə olabiləcəyini düşünməyə başladı və Zevsin qadağasını unudaraq qutunu açdı. Qutunun içindəki xəstəlik, kədər, iztirab, yalan, riya, kimi insanları narahat edəcək və onları fəlakətə aparacaq nə qədər pislik varsa hamısı açılan qutudan quşlar kimi uçdular.





Pandora səhvini anlayaraq biraz sonra qutunu bağladı ancaq qutuya gizlədilənlər arasında, insanları yaşadacaq, təsəlli edəcək "ümid" də vardı lakin ümid qutudan çölə çıxa bilmədiyi üçün, qutunun içində qalmışdı. Beləcə, Zevs qadını özüylə birgə fəlakətlərlə dolu bir qutuyla yerüzünə yollayaraq insanlardan intiqam almışdır" [11, s.22].

Həmçinin qədim yunan miflərində tez- tez qadın ilahələrinə də rast gəlmək olar. Bu ilahələr saflığı, təmizliyi təmsil etmiş və qadınların köməyinə çatan kimi əks edilmişlər. Məsələn, Hera ilahəsi Zevsin bacısı və həyat yoldaşıdır. "O, Olimp İlahələrinin ən çox sayğı görən və ən böyüyüdür. Göyün saf işığını təmsil edən Hera qadının müqəddəs örnəyi, gözəl namuslu həyat yoldaşının ilahi bir simvoludur. Gözəl, ağ qollu, inək gözlu, Hera doğumlara baxar, anaları qoruyar onlara yardım edərdi. Hera adının hava anlamına gələn "aer" kəlməsindən gəldiyini söyləyənlərlə yanaşı ona başqa mənalar da verən olmuşdur. Yunanca qadın mənasına gələn Hera böyük ehtimal "Herva" - qadın qoruyucusu kəlməsindən meydana gəlmişdir" [10].

Afrodita isə yunan mifologiyasında eşq və gözəllik tanrıçasıdır. Zevs və Dianaın qızıdır. Rəvayətə görə dəniz köpüyündən yarandığı üçün adının mənası "köpükdən çıxan" anlamına gəlir. Roma mifologiyasında adı Venüsdür. Afrodita nigahın hamisidir. Hətta deyilənə görə Troya müharibəsi zamanı Afrodita döyüşlərə müdaxilə etməyə cəhd göstərmiş və troyalılara yardım etmişdir [14].

Eyni zamanda qədim Türk əfsanələrində də müxtəlif qadın obrazlarına rast gəlmək olar. Ağ ana obrazı belələrindəndir. "Tanrı Ülgen suyun üzərində uçurdu, qonmağa yeri yox idi. O, sudan çıxan Ağ ananın əmri ilə dünyanı – yeri. Göyü yaradır. Ülgen Erliyi də su üzərində üzən gildən yaradır və ona özünə kiçik qardaş edir. Görünür, Ağ ana müqəddəs ana və Ülgen vaxtilə eyni bir başlanğıc, yəni sudan yaranan olmuşlar və onların iştirakı ilə kainat yaranmışdır" [12]. Deməli, qədim Türk əfsanələrində Tanrıya dünyanı və insanları yaratması üçün fikir və ilham verən "Ağ ana" adlı bir qadındır.

"Oğuz kağanın ilk xanımı qaranlığı yararaq göydən enən mavi bir işıqdan, ikinci xanımı isə mübarək bir ağacdan doğmuş qeyri-adi varlıqlardır. Yakutlarda ağ oğlan ağacın içindən çıxan nurlu bir qadın tərəfindən əmizdirilmişdir. İlk türk abidələrində olan "Bilgə Kağan kitabəsi"ndə xaqan belə söyləyir: – "Sizlər, anam xatun, böyük analarım, bacılarım, xala və bibilərim, şahzadələrim..." Ən qədim türk inancına görə, "Xan və Xaqan" göy ilə yerin övladlarıdır. Qadın burada göyün 7-ci qatındadır. Qadına belə bir müqəddəs varlıq kimi yanaşılan cəmiyyətdə qadının döyülməsi, xor görülməsi mümkün deyil. "Dədə Qorqud" dastanlarında "Dəli Domrul" boyunda Domrul canının yerinə can axtararkən, bunu öz qadınından tapmış, qadını ona heç çəkinmədən canını verəcəyini söyləmişdir. Qırğızların "Manas" dastanında qadın evin namusunun qurucusudur. Qəhrəmanlar əxlaqa zidd hərəkət etdikləri zaman qadın onlara mane olur. Qazaxlarda qadına verilən dəyər bu atalar

sözü ilə ən gözəl şəkildə izah olunmuşdur: "Birinci zənginlik sağlamlıq, ikinci zənginlik qadındır". Turk qadını başqa cəmiyyətlərdə olduğu kimi təzyiq altında tutulmur və alçaldılmırdı. Qadının ucalığı Altay dağlarının ən yüksək təpəsinə "Qadın başı" adı verilərək sanki gələcəyə bir mesaj olaraq göndərilmişdir" [13].

"İnsanın ilk qidası – ana südüdür. Eyni zamanda, bizdə "Quran" və çörəyə and kimi ən möhkəm andlardan biri "Anamın südü haqqı" andıdır. Bizim xalq nağıllarımızdakı div və cin personajlarına yalnız "Anamın südü haqqı" andını içdikdən sonra inanmaq olardı" [4, s.57].

Ancaq sonrakı dövrlərdə, xüsusilə, cahiliyyə dövründə qadınlara münasibət dəyişməyə başlanıldı, qadına kölə kimi yanaşılmış, qadının haqları tapdalanmışdır, ta ki, İslam dini gələnə qədər. Beləki, İslam dini qadınla kişinin hüquqlarının bərabər olduğunu qeyd edir eyni zamanda qadının hüquqlarını müdafiə edən bir din idi. "Onlar sizin, siz də onların libasısınız... Kişilərin qadınlar üzərində şəriətə görə hüquqları olduğu kimi, qadınların da kişilər üzərində hüquqları vardır..." *(Bəqərə, 187 və 228).*

Qız uşaqları diri-diri yandırıldığı vaxt İslam Peyğəmbəri öz qızını çiyninə alaraq Məkkənin küçələrində gəzdirərdi. Peyğəmbərimizin hədislərindən də aydın olur ki, İslam dini qız uşaqlarına böyük dəyər vermişdir. "Allah-Təala hər kimə qız övladı verərsə, ona mal və dinində bərəkət əta edər". Sevimli Peyğəmbərimiz (s.ə.s.) vida xütbəsində "Qadınlar sizə Allahın bir əmanətidir" deyə buyurmuşdur. Təsadüfi deyildir ki, orta əsirlər dövrünün görkəmli yazarı Nizami Gəncəvi öz poemasında Xosrovun təkamülünü Şirin adlı türk qızının köməkliyi ilə edir və ya "Yeddi gözəl" poemasında Bəhram yeddi gün boyunca başqa ölkələrdən gələn qızların danışdığı hekayələrlə təkamül keçir. "Nizamiyə qədər ədəbiyyatda qadına yeni münasibət bəsləmək, onu əsərin baş qəhrəmanı səviyyəsinə yüksəltmək, hökmdarlara ağıl verən, onları düz yola gətirən obraz kimi təqdim etmək ənənəsi olmamışdır" [3, s. 33].

Nizami "Sirlər xəzinəsi" poemasında "Sultan Səncər və qarı" hekayəsində heç kəsin cəsarət edib ölkədəki çətinlikləri dilə gətirmədiyi həqiqətləri bir qoca qarının dili ilə verir. Həmçinin "İskəndərnamə" poemasında dünyanı fəth edən İsgəndərə türk hökmdarı Nüşabənin dili ilə dərs veirir. “Müdriklik mücəssəməsi kimi Şərq hökmdar tipini təcəssüm etdirən Nüşabə ilə İskəndərin dialoqu hərbə, gücə əsaslanan hakimiyyətlə mənəviyyatın vəhdətinin qüdrətli hökmdarın ideal insana çevrilməsindəki rolunu əyani şəkildə təcəssüm etdirir. Azərbaycan qadın hökmdarı Nüşabənin elçi sifətində gəlmiş İskəndərlə görüşü zamanı Azərbaycan qonaqpərvərliyinin nümunəsi kimi süfrəyə hər cür yeməklər düzdürməklə yanaşı, həm də şahənşahın qarşısına qiymətli daş-qaşla dolu bir neçə xonça da qoydurması düşünülmüş və ibrətamiz bir hadisədir. Və Azərbaycan hökmdarının Makedoniyalı İskəndərə xonça əhvalatı ilə əlaqədar verdiyi aşağıdakı şərh həm də, hakimiyyətin mahiyyətini izah etmək baxımından Nizami Gəncəvi baxışlarının ümumiləşmiş yekunudur:" [6]





***Nüşabə gülərək söylədi şaha:***
***- Daşın ki, boğaza yolu yox daha,***
***Faydasız, yaramaz belə daş üçün***
***Bu qədər vuruşmaq, çarpışmaq neçin?***
***İndi ki, yeməyə yaramaz bu daş,***
***Dünyada onunla ucalarmı baş?*** [5, s.215]

Ancaq bununla yanaşı orta əsrlərdə qadına münasibətdə ikili xarakter özünü göstərir. Bunun əsas səbəbi isə qadınların saray qadınları və adi həyatda yaşayan qadınlar olaraq iki yerə bölünməsidir.

Əlfiyyə-Şəlfiyyə mövzusuna ilk dəfə Əyyuqi müraciət edib. Əlfiyyə-Şəlfiyyə həvəsnamədir. Hökmdar yaşca balaca olduğu üçün onu evləndirməyə həvəsləndirmək üçün yazılmış əsərlərdir. Ancaq bu mövzuda yazılan əsərlər hər zaman müsbət qarşılanmamış müxtəlif yazarlar tərəfindən tənqid edilmişdir. Məsələn, Xosrov əl-Ustad bu mövzulu əsərləri tənqid etmişdir. "Əbu Bəkr ibn Xosrov müasiri olan Nizami Gəncəvi kimi silsilə qadın obrazları yaratmışdır. O da Nizami kimi yaratdığı qadın obrazlarına rəğbət bəsləmiş, onların mayasını məhəbbətdən yoğuraraq müsbət keyfiyyətləri, əxlaqi saflığı və sədaqətləri ilə yüksəltmiş və oxucularına yeni keyfiyyətdə qadın qəhrəmanları təqdim etmişdir" [3, s. 27]. "Munisnamə" müəllifinin yaratdığı silsilə qadın obrazları içərisində Urviyə xüsusi yer tutur. XXX hekayənin baş qəhrəmanı olan bu qadın həyatında ağır, gözlənilməz, çətin vəziyyətlərə düşür, lakin qadınlıq ləyaqətini, ismətini qoruyub saxlaya bilir" [3, s. 31] .

Orta əsrlərdə müxtəlif təriqətlərin xüsusilə, sufizmin yayılması qadın obrazlarına da müxtəlif yeni çalarlar qatdı. Beləki, sufizmdə bir çox fikirlər gizlin mənalarda kodlaşdırılır. Bu dövr əsərlərdə tez-tez rast gəldiyimiz qadın obrazları bizə kodlaşdırılmış olaraq təqdim edilmişdir. Məşuq-aşiq münasibətlərində əslində Allah və bəndə arasında olan sevgi, bizə ezoterik bilgilərlə çatdırılırdı.

"Leyli və Məcnun" mövzusunda 150-dək müəlliflər əsər yazmışdır" [7, s. 144]. Bu əsərlərdə heç də dünyəvi məhəbbətdən söz getmir. "Məcnunun Leyli məhəbbəti ilə yaşaması, əslində, nəfsi ilə mübarizə apara-apara fiziki bədənin daxilində ruhani transformasiyaya uğrayaraq İlahi eşqə yetişməsi üçün keçdiyi ağrılı- acılı bir yol idi" [1, s.102]. Təsəvvüfü qat Füzulinin "Leyli və Məcnun" poemasında özünü daha çox göstərir. Əsərdə Məcnunun səhrada Leylini görüb rədd etməsi Həqiqət anındakı Fəna-Fillah mərhələsinə uyğun gəlir. Leyli və Məcnunun ölüb məzarda birləşmələri isə Bəqa – Fillah mərhələsidir.

Eyni zamanda təsəvvüf ədəbiyyatında gözəlin dodağı, zülfü, xalı deyərkən kodlaşdırılmış formada başqa mənalar başa düşülür. Məsələn,

"dodaq sufizmdə kəlam, ruh, həyat, fəna, yoxluq və s. simvolik anlamlarda işlədilir.Zülf sayca çoxdur, qaradır, gözəlin üzünü örtür, çox zaman əyri və qıvrım olur, uzundur və s. Bu kimi məziyyətlərinə görə saç təsəvvüfdə mümkün aləmin, kəsrətin, nəfsi istəklərin, maddi dünyanın əyri işlərinin, azğınlıq və çaşğınlığın, zülmət və qaranlığın, Haqq (məşuq, yar, canan) ilə bəndə (aşiq) arasında pərdə yaradan, Haqqın sirlərini və gözəlliyini (üzünü) örtüb ona hicab olan Şəhadət aləminin simvolu kimi işlədilir. M.Şəbüstəri üzdəki qara nöqtəyə bənzər xalı təsəvvüf istilahı olaraq vəhdət mərkəzi, bütün varlığı əhatə edən dairənin ortasında qərar tutan vəhdəti-vücuda işarə kimi izah edir. Xal öz rənginə və formasına görə ürəyə bənzədilir. Ürək isə imanın məskənidir" [2, s. 133].

## ƏDƏBİYYAT


1. *Abdullayeva M. Klassik poeziya: ezoterik xəzinə. – Bakı: Bakı Universiteti, 2009. - 365 s.*
2. *Babayev Y. Təriqət ədəbiyyatı: sufizm, hurifizm: Dərs vəsaiti. – Bakı: Nurlan, 2007. - 128 s.*
3. *Əliyeva İ. Klassik Azərbaycan ədəbiyyatında hekayə topluları: mövzu, ideya və problematikası: Dərs vəsaiti. – Bakı: Bakı Universiteti, 2016. - 144 s.*
4. *Əmiraslanov T. Qastrosofiya. – Bakı: Nurlan, 2021. - 255 s.*
5. *Gəncəvi N. İskəndərnamə. – Bakı: Lider, 2004. - 429 s.*
6. *Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları: Dərs vəsaiti. – Bakı: Azərnəşr, 2010. - 372 s.*
7. *İbrahimov S. Orta əsrlər Azərbaycan romantik ədəbiyyatı: Dərslik. – Bakı: MBM , 2014. – 338 s.*
8. *Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi: Dərslik. – Bakı: Proqres, 2012. - 433 s.*
9. *https://nuhcixan.az/news/elm-tehsil/55902-nizami-gencevinin-iskendernamesi-azerbaycan-edebiyyatinin-serefnamesi-isa-hebibbeyli*
10. *https://avys.omu.edu.tr/storage/app/public/akin.temur/135132/1.%20hafta.pdf*
11. *https://s6.dosya.tc/server9/ba71sb/Mitoloji_2_.pdf.htm*
12. *https://s6.dosya.tc/server9/ylt93t/41-49_1_.pdf.html*
13. *https://www.bildirchin.az/q%C9%99dim-turkl%C9%99rd%C9%99-qadin-huquqlari/*
14. *https://az.m.wikipedia.org/wiki/Afrodita*